AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# DAYANIQLI MALİYYƏ PRİNSİPLƏRİ

2024



## Mündəricat


Abreviaturalar və akronimlər ........................................ 3

Anlayışlar ........................................ 4

Giriş ........................................ 5

Dayanıqlı maliyyə prinsipləri ........................................ 7

1. Biznes strategiyası ........................................ 7

2. Korporativ idarəetmə ........................................ 11

3. Risklərin idarə edilməsi ........................................ 14

4. Məlumatların açıqlanması ........................................ 21

## Abreviaturalar və akronimlər

| | |
|---|---|
| AMB | Azərbaycan Respublikasının Mərkəzi Bankı |
| AvMB | Avropa Mərkəzi Bankı |
| BDSŞ | Beynəlxalq Dayanıqlılıq Standartları Şurası[1] |
| BMK | Beynəlxalq Maliyyə Korporasiyası |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| ESİ | Ekoloji, sosial və idarəetmə |
| DİM | Dayanıqlı İnkişaf Məqsədləri |
| DB | Dünya Bankı |
| DBMŞ | Dayanıqlı Bankçılıq və Maliyyələşmə Şəbəkəsi |
| DŞ | Direktorlar Şurası |
| İDMGAİQ | İqlim Dəyişmələri ilə bağlı Maliyyə Göstəricilərinin Açıqlanması üzrə İşçi Qrupu |
| MSYŞ | Maliyyə Sisteminin Yaşıllaşdırılması üçün Şəbəkə |
| MŞ | Müşahidə Şurası |
| İH | İdarə Heyəti |
| QHT | Qlobal Hesabatlılıq Təşəbbüsü |

[1] International Sustainability Standards Board

## Anlayışlar

- **Dayanıqlı maliyyə** BMT tərəfindən qəbul edilmiş 17 DİM-in təmin edilməsinə yönəlmiş dayanıqlı və balanslaşdırılmış iqtisadi artıma nail olmağa töhfə verən maliyyələşdirmə və bununla əlaqəli institusional və bazar infrastrukturunu ehtiva edir. Başqa sözlə, dayanıqlı maliyyə ESİ amillərinin maliyyə institutları tərəfindən qərarvermə prosesində nəzərə alınmasını ehtiva edir.
- **İqlim riski** dedikdə, ekstremal hava şəraiti və aşağı karbon tutumlu sektorlara keçidi ilə bağlı maliyyə institutlarının üzləşə biləcəyi maliyyə riskləri nəzərdə tutulur. İqlim riskləri özündə geniş mənada ***fiziki riskləri*** və ***keçid risklərini*** əhatə edir:
  - ***Fiziki risklər*** ani baş verən təbiət hadisələrinin tezliyinin və kəskinliyinin artması (daşqın, quraqlıq, meşə yanğınları, torpaq sürüşmələri, tufan və s.), eləcə də iqlim göstəricilərində tədricən baş verən dəyişikliklər (temperaturun artması, yağıntıların artması, dəniz səviyyəsinin qalxması və s.) nəticəsində yaranan maliyyə riskidir.
  - ***Keçid riski*** aşağı karbon iqtisadiyyatına uyğunlaşma prosesində yaranan maliyyə riskidir.
- **Ekoloji risklərə** iqlim dəyişmələrinin yaratdığı mənfi təsirlərin mitiqasiyası və adaptasiyası, ekoloji çirklənmə, təbii resursların və biomüxtəlifliyin qorunması, su çatışmazlığının aradan qaldırılması kimi ətraf mühit məsələlərinin yaratdığı maliyyə riskləri aiddir.
- **Sosial amillərə** bərabərlik, inklüzivlik, məlumatların qorunması və məxfilik, iş standartları, insan resurslarına investisiya, yoxsulluğun aradan qaldırılması, cəmiyyətin sosial rifahının təmin olunması, müştəri məmnuniyyəti və s. kimi məsələlər aiddir.
- **İdarəetmə amillərinə** təşkilati struktur, yuxarı menecmentin mükafatlandırılma siyasəti, audit komitəsinin strukturu, işçi münasibətləri və s. kimi məsələlər daxildir.
- **İqlim dəyişmələrinə uyğunlaşma** iqlim dəyişmələri və bununla əlaqəli risklərin təsirlərinə uyğunlaşma nəticəsində görülən tədbirləri əhatə edir. Belə tədbirlərə nümunə kimi, daşqın əleyhinə sədlərin tikilməsi, siklonlarla bağlı erkən xəbərdarlıq sisteminin qurulması, quraqlığa davamlı məhsul növlərinə keçid və s. göstərmək olar.
- **İqlim dəyişmələrinin mitiqasiyası** istixana qazlarının emissiyasının azaldılmasına yönəldilmiş tədbirləri əhatə edir.
- **Ekoloji və sosial risklərin idarə edilməsi sistemi** ətraf mühit və sosial risklərin idarə edilməsi ilə bağlı tədbirlərin və standartların maliyyə institutunun əsas biznes fəaliyyətlərinə inteqrasiyasını əhatə edir.

## Giriş

İstixana qazlarının emissiyasının azaldılması, aşağı karbon və dairəvi iqtisadiyyata keçid iqtisadiyyat və maliyyə institutları üçün həm risklər, həm də yeni investisiya imkanları yaradır. Bu səbəbdən, iqlim və ekoloji, həmçinin sosial və idarəetmə amillərini nəzərə alan dayanıqlı maliyyə sisteminin formalaşmasını dəstəkləmək və maliyyə sabitliyini təmin etmək məqsədilə AMB tərəfindən 2023-cü ilin fevral ayında "Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi: 2023-2026" (Yol xəritəsi) təsdiq edilmişdir.

"Dayanıqlı Maliyyə Prinsipləri" sənədi Yol xəritəsinin ikinci strateji prioriteti olan *"Dayanıqlı maliyyə axınları üçün ekosistemin formalaşdırılması"* çərçivəsində BMK-nın "Ətraf mühit və Sosial dayanıqlılıq üzrə Fəaliyyət Standartları" və "Korporativ İdarəetmə üzrə matrisi", İDMGAİQ-in tövsiyələri, MSYŞ-ın müvafiq tövsiyə sənədləri, Ekvator prinsipləri, AvMB-ın "İqlim dəyişmələri və ekoloji risklər üzrə təlimatı", DBMŞ-in Qiymətləndirmə Çərçivəsi və Metodologiyası, habelə digər qabaqcıl ölkələrin mərkəzi banklarının və maliyyə bazarlarına nəzarət orqanlarının təcrübələrinə istinad edilərək və yerli maliyyə bazarları şərtləri nəzərə alınmaqla hazırlanmışdır. Bu sənədlə iqlim dəyişmələri və ESİ faktorları üzrə risklərin idarə edilməsi və fürsətlərinin qiymətləndirilməsi və fəaliyyətində müvafiq istiqamətlərdə nəzərə alınması üzrə maliyyə institutlarına (banklar, bank olmayan kredit təşkilatları, investisiya şirkətləri, sığorta şirkətləri), habelə xarici maliyyə institutlarının yerli filiallarına qabaqcıl təcrübənin və "nümunəvi bazar praktikasının" aşılanması hədəflənir.

Bu sənəddə dörd istiqamət - (i) maliyyə institutları tərəfindən biznes strategiyasının formalaşdırılması, (ii) korporativ idarəetmə, (iii) risklərin idarə edilməsi və (iv) məlumatların açıqlanması - üzrə dayanıqlı maliyyə prinsipləri (Haşiyə 1) təqdim edilir. Hər bir istiqamət üzrə dayanıqlı maliyyə prinsipi onun əhəmiyyətini əks etdirən hissədən, tətbiqini təfsilatlı əks etdirən gözləntilərdən və praktiki suallardan ibarət olmaqla formalaşdırılmışdır. Bununla yanaşı, dayanıqlı maliyyə prinsiplərinin tətbiqi üzrə qabaqcıl hesab olunan maliyyə institutlarının təcrübələri "Qabaqcıl təcrübə" adlı haşiyələrdə göstərilir. Dayanıqlı maliyyə prinsiplərinin tətbiqinə tamamlayıcı sənədlər olaraq, risklərin idarə edilməsi və dayanıqlı maliyyə ilə bağlı məlumatların açıqlanması üzrə təfsilatlı təlimat sənədləri da maliyyə institutlarına təqdim olunacaqdır.

Dayanıqlı maliyyə prinsipləri AMB-in dayanıqlı maliyyəyə keçid üzrə siyasətini dəstəkləyir və tətbiqi tövsiyə xarakteri daşıyır. Sistem əhəmiyyətli maliyyə institutları tərəfindən dayanıqlı maliyyə prinsiplərinin və gözləntilərinin tətbiqi üzrə nümunəvi davranış sərgiləməsi gözlənilir.

**Haşiyə 1. Dayanıqlı maliyyə Prinsipləri**

**Prinsip 1.** Maliyyə institutları qısa, orta və uzun-müddətli dövrə iqlim dəyişmələri və ESİ risklərinin və fürsətlərinin onların fəaliyyətinə və fəaliyyət göstərdikləri biznes mühitinə təsirini qiymətləndirir və müvafiq olaraq biznes qərarlarında nəzərə alır.

**Prinsip 2.** Maliyyə institutlarının MŞ (DŞ) iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi və fürsətlərinin qiymətləndirilməsinin korporativ idarəetmə sistemində nəzərə alınmasını təmin edir və adekvat qərarvermənin təmin olunması məqsədilə müvafiq vəzifə və məsuliyyət bölgüsünü müəyyən edir.

**Prinsip 3.** Maliyyə institutları risklərin idarə edilməsi və daxili nəzarət çərçivəsinə, habelə kapital planlaşdırılması prosesinə iqlim dəyişmələri və ESİ risklərini inteqrasiya edir.

**Prinsip 4.** Maliyyə institutları iqlim dəyişmələri və ESİ riskləri üzrə Mərkəzi Bankın tələbləri nəzərə alınmaqla müvafiq indikatorlar müəyyən edir və maliyyə bazarlarına nəzarət orqanının müəyyən etdiyi qaydada açıqlayır.

AMB iqlim dəyişmələri və ESİ risklərinə nəzarət çərçivəsinin təkmilləşdirilməsi və bu istiqamətdə maliyyə institutlarını dəstəkləmək məqsədilə qabaqcıl beynəlxalq təcrübə və yerli bazar şərtləri nəzərə alınmaqla mütəmadi tədbirlər görməkdə davam edəcəkdir. Dayanıqlı maliyyə prinsiplərinin maliyyə institutları tərəfindən absorbsiyası dərinləşdikcə, Yol xəritəsi ilə müəyyən olunmuş Tədbirlər Planı və yerli bazar şərtləri nəzərə alınmaqla sahəvi tənzimləmə çərçivəsinə inteqrasiya ediləcəkdir.

## Dayanıqlı maliyyə prinsipləri

Maliyyə institutları dayanıqlı maliyyə prinsiplərini biznes strategiyasının formalaşdırılmasında, korporativ idarəetmə sistemində, risklərin idarə edilməsi prosesində və məlumatların açıqlanmasında nəzərə alır.

Dayanıqlı maliyyə prinsiplərinin tətbiqi ilə maliyyə institutlarında aşağıdakı nəticələrə nail olunması hədəflənir:

1. Maliyyə institutunun MŞ-i (DŞ) iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi üzrə strateji baxış və hədəflər müəyyən edir, hədəflərin realizasiyasını, habelə bu məqsədlə adekvat resursların mövcudluğunu təmin edir;
2. Maliyyə institutları iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi, habelə fürsətlərinin qiymətləndirilməsi məqsədilə adekvat korporativ idarəetməni (vəzifə və öhdəliklər, daxili qayda və metodiki göstərişlər, fəaliyyət əsaslı mükafatlandırma, audit proseduru, məlumatların açıqlanması və s.) təmin edir;
3. Maliyyə institutları iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi üzrə siyasət, strategiya, risk indikatorları, proses və prosedurların mövcudluğunu təmin edir;
4. Maliyyə institutları tərəfindən qabaqcıl təcrübə və beynəlxalq standartlar nəzərə alınmaqla iqlim dəyişmələri və ESİ riskləri və fürsətləri üzrə məlumatların açıqlanmasını təmin edir.

## 1. Biznes strategiyası

| |
|---|
| **<u>Prinsip 1.</u>** Maliyyə institutları qısa, orta və uzun-müddətli dövrə iqlim dəyişmələri və ESİ risklərinin və fürsətlərinin onların fəaliyyətinə və fəaliyyət göstərdikləri biznes mühitinə təsirini qiymətləndirir və müvafiq olaraq biznes qərarlarında nəzərə alır. |

### <u>Prinsipin əhəmiyyəti</u>

İqlim dəyişmələri və ESİ riskləri öz növbəsində maliyyə institutunun fəaliyyət göstərdiyi biznes mühitini formalaşdıran amillərə - *makroiqtisadi göstəricilərə, rəqabət mühitinə, tənzimləmə və nəzarət çərçivəsinə, sosio-demoqrafik göstəricilərə, geosiyasi şərtlərə* - təsir edə bilər. Fiziki və keçid risklərinin müxtəlif iqtisadi fəaliyyət növlərinə, habelə maliyyə sisteminə əhəmiyyətli təsir göstərəcəyi gözlənilir. Bir sıra fiziki və keçid riskləri artıq özünü göstərməyə başlasa da, vaxt keçdikcə iqlim dəyişmələrinin realizasiyasının mənfi təsiri artmaqda davam edəcəkdir. Bu təsir birbaşa özünü maliyyə institunun

mənfəətliyinin azalması, aktivlərinin amortizasiyası və ya dolayı şəkildə makro-maliyyə dəyişiklikləri ilə göstərə bilər.

Bu səbəbdən, iqlim dəyişmələri, habelə digər ESİ riskləri və fürsətləri və maliyyə təsirlərinin maliyyə institutunun biznes strategiyasına və biznes modelinin dayanıqlılığına və davamlılığına təsiri qiymətləndirilir və müvafiq şəkildə nəzərə alınır (Qrafik 1). İqlim dəyişmələri və ESİ risklərinin biznes strategiyasına inteqrasiyası maliyyə institutları tərəfindən əsas biznes fəaliyyətlərinin həyata keçirilməsi zamanı bu risklərə qarşı daha yaxşı nəzarət mexanizminin formalaşdırılmasına nail olacaqdır.

Bununla yanaşı, maliyyə institutu öz fəaliyyəti zamanı ətraf mühit, ekologiya, habelə cəmiyyətə birbaşa təsir göstərə bilər. Maliyyə institutu innovativ həllər vasitəsilə mənfi təsirlərin azaldılması və müsbət təsirlərə transformasiyasını aşağıdakı istiqamətlərdə strateji baxışında nəzərə ala bilər:

- enerji və su resurslarından səmərəli istifadə edilməsi;
- tullantıların səmərəli idarə edilməsi;
- əmək bazarı və digər sosial tələblərə cavab verilməsi;
- ölkənin milli strateji inkişaf prioritetləri ilə uzlaşma.

## Prinsipin tətbiqi üzrə gözləntilər

**Gözlənti 1.1. Maliyyə institutları qısa, orta və uzun-müddətli dövrə iqlim dəyişmələri və ESİ risklərinin və fürsətlərinin biznes strategiyasına və biznes modelinə necə təsir etdiyini müəyyən edir.**

Maliyyə institutları iqlim dəyişmələri (o cümlədən, əhəmiyyətli fiziki və keçid risk drayverləri[2]) və ESİ riskləri və fürsətlərinin biznes sektorları, coğrafi ərazi və məhsul və xidmətlər üzrə qiymətləndirmə aparır. Bu qiymətləndirmələr vasitəsilə maliyyə institutunun iqlim dəyişmələri və ekoloji risklərə həssaslığının və onun dayanıqlılığına təsiri müəyyən edilir. Qiymətləndirmə nəticələri aşağıdakı istiqamətlər üzrə biznes strategiyası və biznes modelində nəzərə alınır:

- təşkilati struktur;
- biznes proses və prosedurları;
- adekvat kapital səviyyəsinin planlaşdırılması;
- məhsul və xidmətlər;
- resurs planlaması (maliyyə, insan resurları).

[2] **Fiziki risklər** iqlim dəyişmələri, habelə ektremal hava şəraiti, ətraf mühitin deqradasiyası, hava, su və torpaq çirklənməsi, su çatışmazlığı, biomüxtəlifliyin azalması və meşələrin qırılması ilə bağlı yaranmış maliyyə itkiləridir. Fiziki risklər ekstremal hadisələr (quraqlıq, daşqın, tufan və s.) nəticəsində yarandıqda "kəskin", lakin tədricən baş vermiş hadisələr (temperaturun artması, su səviyyəsinin qalxması, resurs çatışmazlığı və s.) nəticəsində yarandıqda isə "xroniki" kimi qruplaşdırılır. Fiziki risklər öz təsirini birbaşa (əmlaka ziyan dəyməsi, məhsuldarlığın azalması) və dolayı (təchizat zəncirində qırılmalar) şəkildə göstərə bilər. **Keçid riski** aşağı karbon və ekoloji təmiz və dayanıqlı iqtisadiyyat modelinə keçidlə bağlı yaranmış maliyyə itkiləridir. Bu maliyyə itkiləri iqlim və ətraf mühitlə bağlı siyasətdə, habelə bazar sentimentində gözlənilməyən dəyişikliklər nəticəsində baş verə bilər.

Qiymətləndirmə stress test və ssenari analizi, habelə mühakimə metodu vasitəsilə aparılır.

**<u>Qrafik 1.</u> İqlim riskləri ilə bağlı risklər, fürsətlər və maliyyə təsirləri**




Mənbə: İDMGAİQ

**<u>Gözlənti 1.2.</u> Maliyyə institutu iqlim dəyişmələri və ESİ risklərini biznes strategiyasına və biznes modelinə inteqrasiya edir və kəmiyyət və keyfiyyət indikatorları müəyyən etməklə onun tətbiqinin monitorinqini təmin edir.**

Maliyyə institutları iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi üzrə ayrıca strategiya formalaşdıra bilər və ya mövcud strategiyaya inteqrasiya edə bilər. Maliyyə institutları biznes strategiyasının formalaşdırılması zamanı dayanıqlı inkişaf, iqlim dəyişmələri, həmçinin maraqlı tərəflərin gözləntilərini nəzərə alır.

Biznes strategiyasının effektiv realizasiyası məqsədilə maliyyə institutu kəmiyyət və keyfiyyət indikatorları müəyyən edir. Maliyyə institutunun növündən asılı olaraq, həmçinin müvafiq biznes istiqamətləri üzrə və portfel səviyyəsində uyğun indikatorlar müəyyən edilir. Belə indikatorlara nümunə olaraq, ipoteka portfeli üzrə ortalama enerji istehlakı, aktivlərin karbon qazı emissiyasını göstərmək olar.

**<u>Gözlənti 1.3.</u> Maliyyə institutu dayanıqlı maliyyə yanaşmasını inzibati-təsərrüfat fəaliyyətində (məsələn, elektrik enerjisi və sudan səmərəli istifadə və s.) nəzərə alır.**

Maliyyə institutları öz fəaliyyətinin ətraf mühit, ekologiya, habelə cəmiyyətə mənfi təsirlərinin aradan qaldırılması, həmçinin müsbət təsirlərinin artırılması məqsədilə bir sıra tədbirlər görə bilər:

- enerji səmərəliliyinə nail olmaq üçün alternativ enerji mənbələrindən istifadə edir və istifadəni təşviq edir;
- su resurslarından səmərəli istifadə edir və bunu təşviq edir;
- tullantıların səmərəli idarəedilməsini, habelə kağızın təkrar emalını təmin edir;
- sosial əhəmiyyətli layihələr həyata keçirir.

## Prinsipin tətbiqi üzrə praktiki suallar

Maliyyə institutları tərəfindən biznes strategiyası üzrə prinsipin tətbiqi məqsədilə *bir sıra praktiki sual nümunəsi* verilmişdir:

i. Dekarbonizasiya/ sıfır emissiyanın tətbiqinin dəstəklənməsi məqsədilə ölkənin sosial-iqtisadi inkişafına dair milli prioritetləri və beynəlxalq sazişlərdə götürülmüş öhdəliklər nəzərə alınmaqla maliyyə institutu hədəflər və tədbirlər planı müəyyən etmişdirmi?

ii. Maliyyə institutu hansı iqtisadi sektorların və iqtisadi fəaliyyət növlərinin fiziki risklərə/ keçid risklərinə məruz qaldığını və bu risklərin əhəmiyyətini müəyyən etmişdirmi?

iii. Fiziki risklərdən/ keçid risklərindən təsirlənmə ehtimalı olan iqtisadi sektorlar və iqtisadi fəaliyyət növləri üzrə biznes yanaşması müəyyən edilmişdirmi (istixana qazı emissiyası yüksək olan iqtisadi fəaliyyətin maliyyələşdirilməsi azaldılmalı, dayandırılmalı, davam etdirilməli və s.)?

iv. Maliyyə institutunun iqlim dəyişmələri və ESİ risklərlə bağlı yanaşmasının müştərilərə, habelə aidiyyəti maraqlı tərəflərə kommunikasiya olunması üçün tədbirlər həyata keçirilmişdirmi?

v. Fiziki/ keçid risklərinin maliyyə institutunun fəaliyyətinə təsiri nəzərə alınmaqla biznes modelinə dəyişiklik edilməsi üzrə qiymətləndirilmə aparılmışdırmı?

vi. Maliyyə institutunun müştərilərlə biznes münasibətlərinin qurulması zamanı dayanıqlı maliyyə yanaşmasının realizasiyasına töhfə verəcək indikatorlar müəyyən olunmuşdurmu?

vii. Dayanıqlı maliyyə üzrə fürsətlərin aşkarlanması məqsədilə qiymətləndirmə aparılmışdırmı?

viii. Maliyyə institutunun başlıca fəaliyyət növləri üzrə (kreditləşmə, investisiya və s.) sistemik iqlim dəyişmələri və ESİ riskləri identifikasiya edilmişdirmi?

ix. Maliyyə insitututu maliyyələşdirilməsi tövsiyə edilməyən (istixana qazı emissiyası yüksək olan iqtisadi fəaliyyət növləri nəzərdə tutulur) məhsul, iqtisadi sektor və fəaliyyət növlərinin siyahısı müəyyən edilmişdirmi?

x. Maliyyə institunun MŞ (DŞ)-sı (və ya ekvivalent) dayanıqlı maliyyə akitvlərinə, layihələrinə və müvafiq iqtisadi sektor və fəaliyyət növlərinə kapital allokasiyası üçün hədəflər müəyyən etmişdirmi?

xi. Maliyyə institutu öz fəaliyyətində də dayanıqlı maliyyə yanaşmasının tətbiqi üzrə hədəflər müəyyən etmişdirmi (məsələn, kağız istifadəsinin azaldılması, tullantılarının idarə edilməsinin təkmilləşdirilməsi, sudan səmərəli istifadə və s.)?

## 2. Korporativ idarəetmə

**Prinsip 2.** Maliyyə institutlarının MŞ (DŞ) iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi və fürsətlərinin qiymətləndirilməsinin korporativ idarəetmə sistemində nəzərə alınmasını təmin edir və adekvat qərarvermənin təmin olunması məqsədilə müvafiq vəzifə və məsuliyyət bölgüsünü müəyyən edir.

Prinsipin əhəmiyyəti

Maliyyə institutunun korporativ idarəetmə sistemi həm biznes fəaliyyəti haqqında, həm də maraqlı tərəflər qarşısında aidiyyəti məsələlər üzrə cavabdehliyi üzrə məlumat təmin edir. Cari çağırışlar nəzərə alınmaqla, maliyyə institutunun korporativ idarəetmə strukturunda ESİ amillərinin nəzərə alınmaması nüfuz riski, hüquqi risk, habelə maliyyə riskləri yarada bilər. ESİ amillərini nəzərə alan adekvat korporativ idarəetmə sistemində şəffaf təşkilati struktur, aydın müəyyən olunmuş vəzifə və öhdəliklər, o cümlədən ESİ prinsiplərinin tətbiqi üzrə məlumatların açıqlanması elementləri nəzərdə tutulur.

Bununla yanaşı, maliyyə institutu tərəfindən müştərilərinin ESİ prinsiplərinin tətbiqinin qiymətləndirilməsi və müştərilərə təşviq etməsi də əhəmiyyətlidir. Beləliklə maliyyə institutu özünü yarana biləcək maliyyə itkilərindən, hüquqi və nüfuz risklərindən qorumuş olacaqdır.

Prinsipin tətbiqi üzrə gözləntilər

**Gözlənti 2.1. Maliyyə institutu təşkilati strukturundaiqlim dəyişmələri və digər ESİ risklərinin idarə edilməsi və fürsətlərinin qiymətləndirilməsi məqsədilə vəzifə və məsuliyyət bölgüsünü müəyyən edir.**

Maliyyə institutu iqlim dəyişmələri və ESİ risklərini korporativ idarəetmə sisteminə, daxili proses və prosedurlara (məsələn, kreditlərin anderraytinqi, investisiya qərarlarının verilməsi, risklərin idarə edilməsi və s.) inteqrasiya edir.

İqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi və fürsətlərinin dəyərləndirilməsində MŞ (DŞ) müstəsna rol oynayır. MŞ (DŞ) həm qısa, həm də uzunmüddətli dövrə iqlim dəyişmələri və digər ekoloji riskləri maliyyə institutunun fəaliyyətində (büdcə planlamasında, maliyyə nəticələrində, risk göstəricilərində və s.) nəzərə alır. İqlim dəyişmələri və ESİ məsələlərinin müzakirəsi mövcud komitələrin

gündəliklərinə daxil edilir.  Belə ki, MŞ (DŞ) maliyyə institunun təşkilati strukturunu və risk profilini nəzərə almaqla ən azı aşağıdakıları təmin edir:

- mövcud komitələrə vəzifə və öhdəliklər müəyyən etmək yaxud yeni komitə formalaşdırmaq;
- iqlim dəyişmələri və ESİ riskləri və onların idarə edilməsinə mütəmadi nəzarəti təmin etmək üçün kəmiyyət və keyfiyyət indikatorları təsdiq etmək;
- iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi və fürsətlərinin dəyərləndirilməsi üzrə məsul əməkdaşlar müəyyən etmək;
- məsul əməkdaşların qiymətləndirilməsini iqlim dəyişmələri və digər ESİ risklərinin idarə edilməsi və fürsətləri üzrə müəyyən edilmiş kəmiyyət və keyfiyyət indikatorları ilə uzlaşdırmaq;
- üç müdafiə xətti üzrə vəzifə və səlahiyyət bölgüsünü müəyyən etmək:
    - *<u>birinci müdafiə xətti</u> biznes fəaliyyətləri üzrə iqlim dəyişmələri və ESİ risklərinin ilkin mərhələdə müəyyənləşdirilməsi, qiymətləndirilməsi, idarə edilməsi, hesabatlığı və monitorinqini təmin edir; ə;*
    - *<u>ikinci müdafiə xətti</u> biznes fəaliyyətini həyata keçirən struktur bölmələr tərəfindən əhəmiyyətli iqlim dəyişmələri və ESİ risklərinin müəyyənləşdirilməsini, bu riskləri mitiqasiya mexanizmlərinin effektivliyini və risk toleransını qiymətləndirir .*
    - *<u>üçüncü müdafiə xətti</u> üzrə daxili audit funksiyası birinci və ikinci müdafiə xətləri tərəfindən maliyyə institutunun biznes fəaliyyətləri, məhsul və xidmətləri səviyyəsində iqlim dəyişmələri və ESİ risklərinin nəzərə alınmasının effektviliyini  qiymətləndirir.*
- iqlim dəyişmələri və ESİ riskləri üzrə hesabatlıq sisteminin formalaşdırılmasını təmin etmək;
- vəzifə və səlahiyyət bölgüsünü aydın, müfəssəl, şəffaf və yazılı qaydada daxili sənədlərlə müəyyən etmək və işləkliyini təmin etmək.

Bununla yanaşı, MŞ (DŞ) öz vəzifə və öhdəliklərində iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi və fürsətlərinin qiymətləndirilməsini daxil edir.

---

**Qabaqcıl təcrübə**

Birləşmiş Krallıqda fəaliyyət göstərən bank nümunəsində iqlim risklərinin korporativ idarəetmə və risklərin idarə edilməsi funksiyasına inteqrasiyası modeli aşağıda göstərilmişdir. İnteqrasiya çərçivəsində biznes modeli və xidmət göstərdiyi müştərilər üçün əhəmiyyəti nəzərə alınaraq, maliyyə institutu risk iştahası bəyannaməsində iqlim risklərinin idarə edilməsi nəzərə almışdır. Maliyyə institutu ikinci müdafiə xətti daxilində İqlim riskləri komandası formalaşdırmış və rəhbər səviyyədə iqlim risklərinin idarə edilməsi üzrə Qrup Baş Risk İnzibatçısını müəyyən etmişdir. Qrup

---

Baş Risk İnzibatçısının fəaliyyətinin dəstəklənməsi və hesabatlığın təmin edilməsi məqsədilə biznes, risk və strategiya istiqamətləri üzrə böyük mütəxəssislərdənibarət İqlim risklərinin idarə edilməsi platforması formalaşdırılmışdır.




Maliyyə institutunun MŞ-i İqlim Risklərinin İştahası Bəyannaməsini təsdiq etmişdir: "*Bank iqlim dəyişmələrindən yaranan maliyyə və qeyri-maliyyə risklərinin idarə edilməsini və Paris Sazişinə uyğun olaraq öz fəaliyyətində və maliyyələşdirdiyi fəaliyyət növləri üzrə emissiyaların azaldılmasını hədəfləyir*."

**<u>Gözlənti 2.2</u>. Maliyyə institutu iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi və fürsətlərinin qiymətləndirilməsi məqsədilə adekvat resursların mövcudluğunu təmin edir.**

Maliyyə institutu tərəfindən iqlim dəyişmələri və ESİ riskləri üzrə yalnız risklərin idarə edilməsi funksiyası üzrə deyil, həmçinin aidiyyəti bütün əməkdaşların (ön ofis əməkdaşları, insan resursları əməkdaşları və s.) məlumatlılığı artırılır və bilik-bacarıqları müxtəlif təlim-tədris proqramları vasitəsilə təkmilləşdirilir. Bununla yanaşı, MŞ (DŞ) və icra orqanı üzvlərinin də bu istiqamətdə mühüm yeniliklərdən və cari çağırışlardan xəbərdar olması məqsədilə aidiyyəti şəxslərin beynəlxalq tədbirlərdə, konfranslarda və s. tədbirlərdə iştirakı təmin edilir.

Maliyyə institutu iqlim dəyişmələri və ESİ riskləri üzrə adekvat daxili qərarvermənin təmin edilməsi məqsədilə məlumat bazası formalaşdırır.

## <u>Prinsipin tətbiqi üzrə praktiki suallar</u>

Maliyyə institutları tərəfindən korporativ idarəetmə üzrə prinsipin tətbiqi məqsədilə *<u>bir sıra praktiki sual nümunəsi</u>* verilmişdir:

i. MŞ (DŞ) yaşıl, sosial, o cümlədən digər dayanıqlı maliyyə investisiyalarının həyata keçirilməsi məqsədilə vəzifə, səlahiyyət və məsuliyyət bölgüsü müəyyən etmişdirmi?
ii. MŞ (DŞ) iqlim dəyişmələri və ESİ risklərinin idarəedilməsi məqsədilə vəzifə, səlahiyyət və məsuliyyət bölgüsü müəyyən etmişdirmi?
iii. Etik davranış qaydalarını tənzimləyən daxili qaydalarına ESİ faktorları inteqrasiya edilmişdirmi?
iv. Iqlim dəyişmələri və ESİ faktorları maliyyə institutunun müvafiq qayda və prosedurlarında nəzərə alınmışdırmı?
v. MŞ (DŞ) iqlim dəyişmələri və ESİ faktorlarnı strategiyasında nəzərə almışdırmı və aidiyyəti hədəflər müəyyən etmişdirmi?
vi. ESİ ilə bağlı siyasət, strategiya, hədəflərin və s. həyata keçirilməsinin yoxlanılması üçün daxili audit planına daxil edilmişdirmi?
vii. İqlim dəyişmələri və ESİ risklərinin, o cümlədən fürsətlərinin müzakirəsi MŞ (DŞ) iclas gündəliklərinə daxil edilirmi?
viii. MŞ (DŞ) üzvlərindən ən azı biri iqlim dəyişmələri və ESİ riskləri, o cümlədən fürsətləri barədə məlumatlıdırmı?
ix. MŞ (DŞ) üzvləri iqlim dəyişmələri və ESİ riskləri, o cümlədən fürsətləri barədə məlumatlılığın artırılması üçün təlim-təhsil proqramlarında iştirak edirmi?
x. MŞ (DŞ) üzvlərinin özünü qiymətləndirilməsinə[3] iqlim dəyişmələri və ESİ riskləri, o cümlədən fürsətləri daxil edilmişdirmi?
xi. İqlim dəyişmələri və ESİ riskləri "üç müdafiə xətti" sisteminə inteqrasiya edilmişdirmi?
xii. Maliyyə institutu iqlim dəyişmələri və ESİ risklərinin idarəedilməsi və fürsətlərinin qiymətləndirilməsi, habelə dayanıqlı maliyyə alətləri üzrə adekvat kvalifikasiyaya malik insan resurslarının olması məqsədilə təlim-təhsil proqramı müəyyən etmişdirmi?

## 3. Risklərin idarə edilməsi

**Prinsip 3.** Maliyyə institutları risklərin idarəedilməsi və daxili nəzarət çərçivəsinə, habelə kapital planlaşdırılması prosesinə iqlim dəyişmələri və ESİ risklərini inteqrasiya edir.

[3] "şelf-assessment"

Prinsipin əhəmiyyəti

Maliyyə institutu öz funksiyalarını həyata keçirən zamanı müştərilərinin biznes fəaliyyətləri nəticəsində iqlim dəyişmələri, habelə digər ESİ risklərinə məruz qala bilər. Bu təsirlər ətraf mühitin çirklənməsi, insan sağlamlığına zərər gəlməsi, biomüxtəlifliyin pozulması və s. ilə nəticələnə bilər. Iqlim dəyişmələri və ESİ riskləri biznes istiqamətləri və risk növlərinə mənfi təsir göstərmək potensialına malik olsa da, bu risklərin təsir miqyası və müddətini müəyyən etmək üçün kifayət qədər məlumat mövcud deyildir. Bu səbəbdən, maliyyə institutu iqlim dəyişmələri və ESİ risklərini özünün risklərin idarə edilməsi sisteminə inteqrasiya edir. Maliyyə institutları növündən asılı olaraq iqlim dəyişmələri və digər ekoloji risklərdən fərqli şəkildə təsirlənəcəyindən risklərin idarə edilməsi üzrə müəyyən olunan dayanıqlı maliyyə prinsiplərinin və gözləntilərinin tətbiqini və risklərin idarə edilməsi üzrə alət və metodların istifadəsini fəaliyyətində müvafiq və aidiyyəti şəkildə təmin edir.

Prinsipin tətbiqi üzrə gözləntilər

**Gözlənti 3.1. Maliyyə institutları iqlim dəyişmələri və ESİ risklərini mövcud risklərin idarə edilməsi və kapital planlaması sisteminə inteqrasiya edir.**

Qabaqcıl beynəlxalq təcrübədə iqlim dəyişmələri və ESİ riskləri yeni risk növü kimi təsnifləşdirilmir və ənənəvi risk növlərinə təsirləri üzrə qiymətləndirilir (Cədvəl 1). Maliyyə institutları iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsini aşağıdakı istiqamətlər üzrə nəzərə alır:

- risk strategiyası;
- risk siyasəti;
- risk iştahası bəyannaməsi;
- risk limitləri;
- risklərin idarə edilməsi üzrə müvafiq daxili qayda və prosedurlar.

Maliyyə institutunun iqlim dəyişmələri və ESİ risklərinə məruzqalması aşağıdakı faktorlardan asılı olacaqdır:

(a) məhsul və xidmət növündən,

(b) maliyyə institunun müştərisinin iqtisadi fəaliyyət növü və fəaliyyət göstərdiyi coğrafi ərazi,

(c) ESİ risklərini idarəetmə səriştəsi və bunun nəticəsində baş verə biləcək potensialın təsirin miqyası və şiddətindən asılı olacaqdır.

Maliyyə institutlarından iqlim dəyişmələri və ekoloji risklərinin mövcud risk növlərinə təsiri ilə bağlı əhatəli yazılı təhlillər aparılır. Bu təhlillər həm balans, həm balansarxası əməliyyatlar nəticəsində formalaşan, habelə maliyyə və qeyri-maliyyə risklərini əhatə etməlidir.

**<u>Cədvəl 1</u>. Fiziki və keçid risklərinin ənənəvi risk növlərinə çevrilməsi**

| Risk növləri | Fiziki risklər | | Keçid riskləri | |
|---|---|---|---|---|
| | **İqlimlə əlaqəli** | **Ekoloji** | **İqlimlə əlaqəli** | **Ekoloji** |
| | ▪ Kəskin hava şəraiti<br>▪ Xronik hava şəraiti | ▪ Su çatışmazlığı<br>▪ Resurs qıtlığı<br>▪ Biomüxtəlifliyin məhvi<br>▪ Çirklənmə<br>▪ Digərləri | ▪ Siyasət və tənzimləmə<br>▪ Texnoloji dəyişikliklər<br>▪ Bazar sentimenti | ▪ Siyasət və tənzimləmə<br>▪ Texnoloji dəyişikliklər<br>▪ Bazar sentimenti |
| **Kredit riski** | Müvafiq iqtisadi sektor və/ və ya coğrafi ərazilər üzrə məruzqalma nəticəsində defolt ehtimalı yarana bilər və defolt halında zərər göstəricilərinə təsir edə bilər. Məsələn, daşqın riski səbəbindən daşınmaz əmlak portfelində təminatın bazar dəyərinin aşağı düşməsi baş verə bilər. | | Enerji səmərəlilik standartları maliyyə institutları üçün xərclərin artmasına və mənfəətliyin azalmasına səbəb ola və bu öz növbəsində yüksək defolt ehtimalı və təminatın bazarının dəyərinin aşağı düşməsi ilə nəticələnə bilər. | |
| **Bazar riski** | Kəskin fiziki risk hadisələri bazar gözləntilərində və gözlənilməyən yenidən qiymətləndirmədə yüksək volatilliyə və müvafiq aktiv kateqoriyaları üzrə itkilərə yol aça bilər. | | Qiymətli kağızların gözlənilməyən yenidən qiymətləndirilməsinə səbəb ola bilər. | |
| **Əməliyyat riskləri (nüfuz riski, hüquqi risk)** | Kəskin hava şəraiti fonunda əmlaka, filiallara və məlumat mərkəzlərinə dəyən fiziki ziyan nəticəsində maliyyə institutlarının əməliyyatlarında dayanmalar baş verə bilər. | | İqlim dəyişmələri və ekoloji risklərlə əlaqədar dəyişən istehlakçı sentimenti nüfuz və hüquqi risklər yarada bilər. | |
| **Digər risklər (likvidlik, biznes model)** | Fiziki risklər səbəbindən dəymiş ziyanın aradan qaldırılması məqsədilə müştərilər hesabdan vəsaitlərini çıxara bilər. | | Müvafiq adaptasiya və diversifikasiya tədbirləri görülmədikdə müəyyən biznes modelleri üçün strateji riskə yol aça bilər. | |

Mənbə: Avropa Mərkəzi Bankı

Maliyyə institutları müştəri münasibətlərinin başlandığı andan etibarən periodik əsasda iqlim dəyişmələri, ekoloji və sosial risklər baxımından təhlilini aparır. Banklar nümunəsində kredit riskinin təhlili prosesinə iqlim dəyişmələri risklərinin inteqrasiyası Qrafik 2-də göstərilmişdir. Sığorta şirkətləri

nümunəsində sığortaçılar risk qiymətləndirməsi zamanı biznes istiqamətləri üzrə əhəmiyyətli iqlim dəyişmələri ilə əlaqəli və digər ekoloji risklərin təsirlərini nəzərə alır. Məsələn, iqlim dəyişmələri nəticəsində təbii hadisələrin tezliyi və şiddəti arta bilər. Bu isə müvafiq sığorta məhsullarının risk modellərində dəyişikliyi zəruri edir.

---

**Qabaqcıl təcrübə**

Avropada fəaliyyət göstərən qabaqcıl təkrarsığorta şirkətlərindən biri təbii fəlakətləri əmlak, məsuliyyət, avto və digər sığorta məhsullarında sığorta təminatı üzrə əsas risklərdən biri kimi müəyyən etmişdir. Təkrarsığorta şirkətində əmlak riskinin modelləşdirilməsi komandası tərəfindən baş verə biləcək təbii fəlakətlər (daşqınlar, tropik siklonlar, külək qasırğaları, zəlzələlər) nəzərə alınmaqla, modellər hazırlamış və müvafiq qaydada yeniləyir.

Digər bir təkrarsığorta şirkəti tərəfindən həm investisiya, həm də anderraytinq fəaliyyətlərində potensial ekoloji, sosial və reputasiya risklərinin müəyyən edilməsi, qiymətləndirilməsi və mitiqasiyasını əhatə edən risklərin idarə edilməsi çərçivəsi hazırlamışdır. Risklərin idarə edilməsi çərçivəsində insan haqları və ətraf mühitin mühafizəsi, və daha həssas iqtisadi sektorlar üzrə təlimatlar əhatə edilir. Bununla yanaşı, təfsilatlı şəkildə hər bir əməliyyatın dayanıqlılıq baxımından hansı hallarda risk yaratması təsvir edilir və onlayn alət vasitəsilə qiymətləndirmə aparılaraq risk skoru müəyyən edilir. Risk skoru əsasında əməliyyatın davam etdirilməsi və ya əməliyyatın müəyyən şərtlərlə davam etdirilməsi və ya əməliyyatın dayandırılması seçilir və ehtiyac olduğu təqdirdə bu prosesə ətraf mühit üzrə mütəxəssislər cəlb edilir.

---

**Qrafik 2. Kredit riskinin təhlili prosesinə iqlim dəyişmələri risklərinin inteqrasiyası**




Mənbə: Deloitte şirkəti

Maliyyə institutu iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsini qrup riskləri çərçivəsində də nəzərə alır.

**Gözlənti 3.2. Maliyyə institutları iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi üzrə müvafiq metod və alətlərdən istifadə edir.**

İqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi üzrə maliyyə institutları müxtəlif metodlardan istifadə edilə bilər:

- Maliyyə institutları tərəfindən maliyyələşdirilməsi həyata keçirilməyən və ya məhdudlaşdırılan şirkət, iqtisadi sektor və iqtisadi regionlardan ibarət istisna siyahısı müəyyən edilə bilər.
- Maliyyə institutları tərəfindən maliyyələşdirilməhəyata keçirilməsi və ya investisiya qoyulması üçün ətraf mühitə müsbət təsirə malik şirkət, iqtisadi sektor və iqtisadi regionlardan ibarət müsbət siyahı müəyyən edilə bilər.

Fiziki və keçid risk drayverinin miqyasından asılı olaraq maliyyə institutları risklərin əhəmiyyətini müəyyən etmək məqsədilə müxtəlif kəmiyyət və keyfiyyət indikatorlarından istifadə edir.

**Qabaqcıl təcrübə**

Maliyyə institutları iqlim dəyişmələrinin təsirlərini risklərin idarəedilməsi çərçivəsinə inteqrasiya edir (Qrafik 3). Bununla bağlı, iqlim dəyişmələri üzrə potensial risk konsentrasiyalarının müəyyən edilməsi üzrə istilik xəritəsindən istifadə edilir. İstilik xəritəsi ölkə/ iqtisadi sektor/ coğrafi ərazi üzrə seqmentləşdirilə bilər. Seqmentləşdirmə aşağıdakı indikatorlar üzrə aparıla bilər:

- Karbon qazı (və digər istixana qazı) intensiv sektorlar;
- Daşqın riski yüksək olan ərazilərdə yerləşən təminatlar və s.

Qısa və uzun müddətli dövrə risk drayverlərinin müəyyən edilməsi məqsədilə maliyyə institutları ssenarilər hazırlayır. Ssenarilər hazırlanarkən bir sıra fərziyyələrdən istifadə edilir:

- Iqlim dəyişmələri ilə əlaqəli siyasət dəyişiklikləri və texnoloji şokların təsiri
- Coğrafi ərazi, ölkə və iqtisadi sektorlar arasındakı potensial fərqlər
- Dəyişikliklərin və risklərin realizasiyası üzrə tələb olunan zaman

**<u>Qrafik 3</u>. İqlim dəyişmələrinin təsirlərinin risklərin idarə edilməsi sisteminə inteqrasiyası**




Mənbə: Niderland Mərkəzi Bankı

Bununla yanaşı, maliyyə institutları əhəmiyyətli iqlim dəyişmələri və ESİ risklərindən qaynaqlanan təsirləri düzgün qiymətləndirmək məqsədilə bu təsirləri ssenari analizinə və stress test təhlilərinə inteqrasiya edir. Bununla bağlı, maliyyə institutunun risk profili nəzərə alınmaqla, fiziki və keçid riskləri nəticəsində üzləşə biləcəyi əlverişsiz təbiət hadisələri üzrə ssenarilər hazırlayır.

İqlim dəyişmələri və ESİ risklərinə daha çox məruz qalan müştərilər üzrə daha detallı və əhatəli qiymətləndirmə aparılır və risk artdıqca yuxarı idarəetmə orqanları qərar vermə prosesində daha yaxından iştirak edir. Maliyyə institutu iqlim dəyişmələri və ESİ risklərinin qiymətləndirilməsinin metod və prosedurlarını, habelə bu məqsədlə istifadə etdiyi məlumatların keyfiyyətini periodik əsasdə qiymətləndirir.

<u>Prinsipin tətbiqi üzrə praktiki suallar</u>

Maliyyə institutları tərəfindən risklərin idarə edilməsi üzrə prinsipin tətbiqi məqsədilə *bir sıra praktiki sual nümunəsi* verilmişdir:

i. Maliyyə institutu iqlim dəyişmələri və ESİ risklərinin müştəri, məhsul, xidmət, əməliyyat və/ və ya layihə səviyyəsində nəzərə alınması məqsədilə müvafiq siyasət, qayda, menecment informasiya sistemi formalaşdırmışdırmı?
ii. Maliyyə institutu periodik əsasda iqlim dəyişmələri və ESİ risklərinin müştəri, məhsul, xidmət, əməliyyat və/ və ya layihə səviyyəsində monitorinqini aparırmı?
iii. Maliyyə institutu iqlim dəyişmələri və ESİ risklərinin periodik əsasda portfel səviyyəsində monitorinqini aparırmı?
iv. Maliyyə institutu iqlim dəyişmələri və ESİ riskləri ilə bağlı kredit riskinin (məsələn, qeyri-işlək aktivlər, kreditin defoltu və s.) izlənilməsi məqsədilə sistem, proses və proseduralar müəyyən etmişdirmi?
v. Maliyyə institutu əhəmiyyətli iqlim dəyişmələri və ESİ risklərinin qiymətləndirilməsini həyata keçirmişdirmi?
vi. İqlim dəyişmələri və ESİ risklərinin realizasiyası zamanı prudensial tələblərə təsiri üzrə təhlil aparılmışdırmı?
vii. Maliyyə institutu iqlim dəyişmələri və ESİ risklərini stress test və ssenari analizinə inteqrasiya etmişdirmi?
viii. İqlim dəyişmələrinin və ESİ risklərinin maliyyə institutunun cari risklərinə, risk iştahasına və risk limitlərinə təsirləri üzrə qiymətləndirmə aparılmışdırmı?
ix. Iqlim dəyişmələri və ESİ risklərinin biznes qərarverməsinə inteqrasinə inteqrasiyası məqsədilə müvafiq təlimat xarakterli sənədlər və/ və ya alətlər (ESi risklərinin idarəedilməsi üzrə təlimat, ESİ riskləri üzrə müştərinin qiymətləndirilməsi, ESİ tədbirlər planı, monitorinq şablonu, performans indikatorları) hazırlanmışdırmı?
x. Maliyyə institutu portfel səviyyəsində iqlim dəyişmələri risklərinin təsirinin azaldılması üzrə hədəflər (performans indikatorları) müəyyən etmişdirmi?
xi. Maliyyə institutu iqlim dəyişmələri və ESİ risklərini özünün risklərin idarəedilməsi çərçivəsinə inteqrasiya etmişdirmi?
xii. Maliyyə institutunun risklərin idarə edilməsi siyasəti, strategiyas və risk iştahasına iqlim dəyişmələri və ESİ riskləri, o cümlədən fürsətləri inteqrasiya edilmişdirmi?

## 4. Məlumatların açıqlanması

**Prinsip 4.** Maliyyə institutları iqlim dəyişmələri və ESİ riskləri üzrə Mərkəzi Bankın tələbləri nəzərə alınmaqla adekvat indikatorlar müəyyən edir və periodik əsasda açıqlayır.

### Prinsipin əhəmiyyəti

Maliyyə institutları tərəfindən iqlim dəyişmələri və ESİ riskləri üzrə müvafiq məlumatların açıqlanması maliyyə sektorunda karbon əsaslı aktivlərin[4] həcminin müəyyən edilməsi və bununla da, kreditlərin verilməsi, investisiya xidmətlərinin göstərilməsi, sığorta məhsullarının anderraytinqi zamanı adekvat qərar qəbuletmənin təmin edilməsi üçün əhəmiyyətli hesab olunur.

Maliyyə institutları iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi və fürsətlərinin qiymətləndirilməsi üzrə indikatorlar hazırlayır. Bu indikatorlar həm daxili qərar vermə, həm də ictimaiyyətə məlumatların açıqlanması məqsədilə istifadə edilir. Maliyyə institutu indikatorları müəyyən edərkən bu sənədlə müəyyən olunmuş prinsiplərin tətbiqini də nəzərə alır.

Qeyd etmək lazımdır ki, iqlim dəyişmələri və ESİ riskləri üzrə məlumatların açıqlanmasının təkmilləşdirilməsi üzrə beynəlxalq səviyyədə prinsiplər və standartlar təkmilləşdirilməkdə davam etdirilir.

### Prinsipin tətbiqi üzrə gözləntilər

**Gözlənti 4.1.** Maliyyə institutları iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi və fürsətlərinin qiymətləndirilməsinin korporativ idarəetmə, biznes strategiyanın formalaşdırılması, risklərin idarə edilməsinə inteqrasiyası və dayanıqlı maliyyə ilə bağlı göstəricilər üzrə məlumatlar açıqlayır.

Bu göstəricilərə nümunə olaraq aşağıdakılar müəyyən oluna bilər:

- MŞ (DŞ) tərəfindən iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi və fürsətlərinin qiymətləndirilməsi üzrə nəzarətin təşkili;
- Maliyyə institutunun qısa, orta və uzun müddətə müəyyən etdiyi iqlim dəyişmələri və ESİ riskləri
- İqlim dəyişmələri və ESİ risklərinin və fürsətlərinin maliyyə institutunun biznes fəaliyyətinə, strategiyasına və maliyyə planına təsiri;
- İqlim dəyişmələri və ESİ risklərinin identifikasiyası, qiymətləndirilməsi və monitorinqi prosedurlarına inteqrasiyası;
- İqlim dəyişmələri və ESİ riskləri və fürsətləri üzrə müəyyən etdiyi hədəf göstəricilər.

---

[4] istixana qazlarının emissiyası yüksək olan iqtisadi fəaliyyətlərin maliyyələşdirilməsinə yönəldilmiş kreditlər və ya qoyulmuş investisiyalar

**Qabaqcıl təcrübə**

Birləşmiş Krallığın aparıcı banklarından biri 2019-cu ildə nəşr etdiyi ESİ hesabatında keçid risklərinin təsirlərinin qiymətləndirilməsi üçün 2018-ci ildə karbon qazı emissiyası və keçid riski yüksək olan altı iqtisadi sektor müəyyən etmişdir. Bank 2019-cu ildə iqlim dəyişmələrinin təsirlərinin idarə olunması üzrə strategiya və yanaşmaların müəyyən olunması məqsədilə 3000-dən çox görüş keçirmişdir. Bununla yanaşı, bank iqlim dəyişmələrinin təsirlərinin qiymətləndirilməsi yanaşmasının öyrənilməsi ilə bağlı sorğu hazırlamış və portfelin 34%-ni əhatə edən 750 müştəridən məlumat toplamışdır. Sorğu nəticələri bank tərəfindən müştərilərinin dəyişikliklərə adaptasiyasını və biznes fürsətlərinin müəyyən edilməsini qiymətləndirməyə imkan vermişdir.

Maliyyə institutu iqlim dəyişmələri və ESİ riskləri ilə bağlı açıqladığı məlumatlarda istifadə etdiyi indikatorlar, onların hesablanması metodologiyası, habelə keyfiyyət göstəriciləri və istinad etdiyi anlayışlar barədə məlumat təqdim edir. Maliyyə institutları məlumatların açıqlanmasında iqlim dəyişmələri və ESİ risklərinin əhəmiyyətinin qiymətləndirilməsi metodunu təsvir edir. Maliyyə institutu iqlim dəyişmələri ilə bağlı risklərin əhəmiyyətsiz olduğunu müəyyən etdikdə bunu adekvat kəmiyyət və/ və ya keyfiyyət qiymətləndirməsi ilə əsaslandırır.

İDMGAİQ-nin tövsiyələrinə əsasən <u>Cədvəl 2</u>-dəki istiqamətlər üzrə məlumatların açıqlanması uyğun hesab edilir.

Maliyyə institutları tərəfindən iqlim dəyişmələri və ESİ riskləri üzrə aydın, təfsilatlı və müqayisə oluna bilən məlumatların açıqlanması dayanıqlı maliyyəyə transformasiya üzrə əhəmiyyətli institusional komponentlərdən biridir.

## <u>Prinsipin tətbiqi üzrə praktiki suallar</u>

Maliyyə institutları tərəfindən məlumatların açıqlanması üzrə prinsipin tətbiqi məqsədilə *<u>bir sıra praktiki sual nümunəsi</u>* verilmişdir:

i. Maliyyə institutu istixana qazlarının emissiyasının azaldılmasına töhfə vermək məqsədilə hədəflər müəyyən etmişdirmi?
ii. Maliyyə institutu beynəlxalq təcrübədə (İDMGAİQ, BDSŞ, QHT və s.) müəyyən olunmuş metodologiyaya əsasən məlumatları açıqlayırmı?

iii. Maliyyə institutları yaşıl, sosial və digər dayanıqlı maliyyə və onların nəticələri/ təsirləri ilə bağlı ictimaiyyətə məlumat açıqlayırmı?
iv. Maliyyə institutları iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi üzrə ictimaiyyətə məlumat açıqlayırmı?
v. Maliyyə institutunun illik hesabatında iqlim dəyişmələri və ESİ riskləri, o cümlədən fürsətləri ilə bağlı məlumat yer alırmı?

**Cədvəl 2. İDMGAİQ tövsiyələri**

| Korporativ idarəetmə | Biznes strategiyası | Risklərin idarəedilməsi | Göstəricilər və hədəflər |
|---|---|---|---|
| İqlim dəyişmələri ilə bağlı risk və fürsətlər üzrə təşkilatın korporativ idarəetməsi barədə məlumat açıqlayın | İqlim dəyişmələri ilə bağlı risklər və fürsətlər əhəmiyyətli olduğu halda təşkilatın biznes strategiyası və maliyyə planlamasına təsirini açıqlayın | Təşkilatın iqlim dəyişmələri ilə bağlı risklərin identifikasıyası, qiymətləndirilməsi və idarəedilməsi haqqında məlumat açıqlayın | İqlim dəyişmələri ilə bağlı risklərin və fürsətlərin əhəmiyyətli olduğu halda qiymətləndirilməsi və idarəedilməsi ilə bağlı göstəriciləri və hədəfləri açıqlayın |